

**MƏMMƏD ƏLİZADƏ,**
Bakı Dövlət Universitetinin
Nəşriyyatının baş redaktoru

## HEYDƏR ƏLİYEV DÜHASI – BÜTÖV ŞƏXSİYYƏTİN MÜCƏSSİMƏSİDİR

**Dühalıq** – yüksək əql və qüdrət sahiblərinin öz ömür yollarında qazandıqları ən kamil davranış vərdişi, milli mənəvi dəyərlərə sahib olmaq, bəşəri ideyaları mənimsəmə xüsusiyyəti, beyinlərində qavradıqları ən incə bilikləri yerbəyer etməklə onları həyata tətbiq etmək bacarığıdır. Bütün bunlarsa sərrafcasına ağlın gücündən, qüdrətindən məharətlə istifadə etmək bacarığı olan sərrast düşüncəli insanların şəxsiyyətini bütövləşdirən amildir. Bəşər tarixinin səhifələrini vərəqlədikcə bu cür şəxsiyyətlərə nadir hallarda rast gəlinir. Ölkəmizin başçısı möhtərəm Heydər Əlirza oğlu Əliyev məhz belə nadir şəxsiyyətlərdən biridir. O, güclü dərketmə qabiliyyətinə, möhkəm yaddaş funksiyasına, əqidə saflığına, şəxsiyyət bütövlüyünə, ağlının gücündən, qüdrətindən bacarıqla istifadə etmək məharətinə, dərin zəkalılığına, əhatəli bilik dairəsinə görə əvəzsiz bir dahidir.

Heydər Əliyevin bu gün sahib olduğu şəxsiyyət zirvəsinə çatmış, ömür yolunun hər anını zərrə-zərrə nəzərdən keçirsək, görərik ki, bu ömür yolunda o, hər danışılan söhbətə, hər deyilən sözə, hər edilən hərəkətə dərketmə, qavrama, beyin süzgəcindən keçirməklə nəticə çıxarmaq qüdrəti ilə yanaşmışdır. Çünki, Heydər Əliyev kimi uzaqgörən bir şəxsiyyət dahilik zirvəsinə qovuşmaq amalı ilə həyatı yaşayanların əqidə bütövlüyü ilə ömür sürdüyünü gözəl bilirdi.

Heydər Əliyev öz milləti qarşısında vətəndaş-şəxsiyyət borcunu layiqincə, ləyaqətlə ödəyən, XX əsrin ikinci yarısında Azərbaycanın milli-mənəviyyat və milli azadlıq tarixi üçün yaddaş ömrü yaşayan şəxsiyyət olmaqla, dünyanın istənilən guşəsindən görülə bilən müdriklik, kamillik, aqillik zirvəsidir. Bu zirvəyə yön olan yol elə Heydər Əliyev yoludur – Azərbaycanın milli azadlıq hərəkatı və milli mənəviyyat tarixində xüsusi səhifə yaradan tarixə yaddaş, tarixə yaşdaş ömür yoludur.

İnsan şəxsiyyət amalı ilə yaşamaq arzusunda olanda dərketmə qabiliyyətini gücləndirir, biganəliyi, ögeyliyi yaddaşından tamamilə silir. Orijinal ömür yaşamaq amalı ilə yaşamağa başlayan Heydər Əliyev ata-babaların ədəb-ərkanını, onların keçdikləri ömür yolunu, söhbətlərini, öyüd-nəsihətləri diqqətindən qaçırmadı.

Aqil insan uğura çıxanda, qarşısına məqsəd qoyub buna nail olmaq üçün dövran edəndə ayaq qoyduğu hər qarış torpağı da diqqətlə gözdən keçirir, kiçicik daşa da, xırda otların növlərinə də fikir verir. Deməli, başladığı yolu sonadək getdikdə yol boyu gördüklərini nəzərindən qaçırtmır. Bax, bu ən böyük ustalıq, ən böyük müdriklikdir.



Yaxşı yadımdadır, 1980-ci ildə Bakıda Azərbaycan aşıqlarının qurultayı keçirilirdi. Qurultay ərəfəsində Azərbaycan Kommunist Partiyasının 1-ci katibi Heydər Əliyev bir neçə aşığı qəbul edirdi.

«Aşıq sənəti, aşıq yaradıcılığı, ümumiyyətlə, şifahi xalq ədəbiyyatı bulaq kimi saf, şəffafdır, çağlayandır, bitib-tükənməzdir»! - deyən Heydər Əliyev elə o dövrlərdən xalq yaradıcılığına, el ədəbiyyatına dərindən bələd idi.

Heydər Əliyev yaxşı bilirdi ki, xalqın yaratdığı ədəbiyyat onun zəkasının qüdrəti, dərin məfkurəsi, xüsusi qabiliyyəti, geniş yaradıcılıq imkanları bahasına yaranır. Lap elə körpəlik çağlarında anasının dilindən eşitdiyi laylaların, bayatıların, oxşamaların Azərbaycan üçün xalq yaradıcılığının xüsusi deyim, təsir gücünə, qüdrətinə malik olduğunu duyaraqdan heyranlığını həmin qəbulda dilə gətirdi. Ölkə başçısının Azərbaycan xalqının yaratdığı saz-söz sənətinin incilər düzülüşünə bələd olduğunu həmin qəbul sübut etdi. Biz onun bir daha Ana dilinin, Ana dilində yazılan söz mülkünün dəyərini, qədir-qiymətini bildiyinin və qiymətləndirdiyinin şahidi olduq. Bunu Heydər Əliyevin «Xalqın, millətin, insanın dilindən əziz heç nə ola bilməz!» ifadəsi də sübut edir.

Belə bir fikri əlavə olaraq qeyd edək ki, xalqımızın əvəzsiz mənbələr olan tarixi qaynaqlarımız Ana dilimizdə yazıldığı üçün onlar bizim ən müqəddəs kitablərimizdir! Azərbaycan dilinin tarixi inkişaf mərhələlərini izləməkdə əvəzsiz rola malik yazılı abidələrimizin ən qədim və möhtəşəmi olan «Dədə Qorqud»un 1300 illik yubileyinin beynəlxalq səviyyədə keçirilməsi üçün H.Əliyevin verdiyi fərman bu müqəddəsliyə olan ehtiramdır.

Heydər Əliyevi Azərbaycan xalqının zamanla inkişaf çağları üçün fədai kimi qəbul etmək insafdan olardı. Belə ki, 1969-cu ilə qədərki Bakı ilə 1970-ci illərdən sonrakı Bakının mənzərəsini görüb, haqq üçün, ədalətlə, mərifətlə müqayisə edib, düzgün qiymət verənlər az deyildirlər. Dənizkənarı sahil bağı, şəhərin qaynar yerlərində salınmış parklar, iri panelli, çoxmənzilli yaşayış massivləri Heydər Əliyevin əməli işinin nəticəsi deyildirmi? Heydər Əliyevdən əvvəl də rəhbərlərimiz var idi. Şəhərimizi, Ana şəhərimizi, hər il xarici ölkələrdən qonaqları olan Bakımızı, keçmiş SSRİ məkanlarından və digər yerlərdən daim qonaqları olan mədəniyyət mərkəzimizi-paytaxtımızı niyə abad, göz oxşayan mənzərələrlə bol görmək istəməmişlər? Axı, millətin gücü, zehni, düşüncəsi, qurub-yaratmaq qabiliyyəti vardır. Sadəcə olaraq, onları mədəni səviyyəyə, mədəni yüksəlişə alışdırmaq istəmirdilər. Ancaq Heydər Əliyev Bakımızda qabiliyyəti, bacarığı olan soydaşlarımızın əməyini mədəni sahələrin yaradılmasına cəlb etdi. 1970-ci ildən Bakının mənzərəsi gözlərimizin önündəcə ildən-ilə gözəllik yönümündə dəyişməyə başladı. Haqq üçün müqayisə edək, insafımızla qiymət verək!!!

Bəs, elm, mədəniyyət işçilərimizin necə, əməyinə verilən yüksək qiymətin xüsusi diqqətlə həyata keçirilməsində Heydər Əliyevin mövqeyinə, roluna, fəa-

liyyətinə göz yummaq olarmı? Kənddə fiziki əməyilə, şəhər və rayonlarımızda zehni, əqli əməyinə görə SSRİ-nin ən yüksək tələbli şöhrət adı olan Sosialist Əməyi Qəhrəmanı, SSRİ-nin əməkdar elm, mədəniyyət, maarif, səhiyyə işçiləri adına layiq görülən Azərbaycanın ziyalılar ordusunun məhz Heydər Əliyevin işlədiyi dövrdə yaranmasına necə, biganə qalmaq olarmı?

Maraq üçün qeyd edirik ki, 1970-ci ildə SSRİ Elmlər Akademiyasının «Sovet türkologiyası» (rus dilində) jurnalı Azərbaycan SSR Elmlər Akademiyası ilə birgə Bakıda – Nəsimi adına Dilçilik İnstitutunda buraxılmağa başlandı. Həmin jurnal türk dillərinin yayılma dairəsi və coğrafi əraziləri üzrə bütün sahələrinin elmi əsaslarla tədqiqinə həsr olunmuşdur.

Milli dəyərləri, mənəvi saflığı, əxlaqi keyfiyyətləri hər şeydən uca tutan Heydər Əliyevin şəxsiyyət bütövlüyü bütün dövrlərdə rüşvətin, rüşvətxorların qənimi olmuşdu.

Heydər Əliyev müdriklik, aqillik, kamillik mücəssiməsidir! O, müəllimimizdir, bizə həyatın keçmişini, zamanın dəyişkənliyindəki tələbləri, milli dəyərləri müqəddəs hesab etməyi illərdir ki, deyir, deyir!!! Deyə-deyə özü də müqəddəsləşmiş, məbədgaha çevrilmişdir.

Heydər Əliyevin şəxsiyyət bütövlüyünü dolğunlaşdıran, onu müdriklik, aqillik, kamillik zirvəsinə qovuşduran amillərdən biri də «cəmiyyət üçün əyri addım atanı cəmiyyət də görmək istəmir!» düşüncəsidir.

Heydər Əliyev sözün qüdrətini, dəyərini, öyüd-nəsihətin dədə-babalardan qaldığını bildirməklə bizlərə anlatmaq istəyir ki, yaşlı, təcrübəli, müdriklər nəsihət verməyə, cavan nəsil isə böyüklərdən, aqillərdən, müdriklərdən öyrənməyə borcludur. Eşidin, ayıq olun! Ailənizin, obanızın, bölgənizin, ailələrin bütövləşib yaratdığı cəmiyyətin saflığı, paklığı, xoş gələcəyi naminə bəd əməllərə, iblis oyunlarına qurşanmayın! Dünya heç kimə qalmır, həyat əldən-ələ düşür. Hər nəslin öz yaş dövrü, yaşadığı dövr, yaşadığı dövrün qazandığı, itirdiyi, zərər çəkdiyi anları vardır. Azərbaycanın bütövlüyü, saflığı, müqəddəsliyi naminə onun layiqli övladı, ləyaqətli vətəndaşı olun!

Heydər Əliyevin mənəvi zənginliyini daha tutumlu, daha sanballı edən amillərdən biri də onun qəlbinin əqidəsi qədər böyük, saf olmasıdır. Bu mənəvi zənginlik Heydər Əliyev dünyasına sirayət edərək onun şəxsiyyət kimi bütövlüyünü təşkil edir. Maddi vəziyyətcə zəngin olanlarla mənəviyyatca zəngin olanlar arasında mövcud olan bir ölçü vardır. Belə ki, mənəviyyatca zəngin olanlar, mənəvi zənginliyə qovuşmağı həyat amalı, ömür məqsədi seçənlər, ancaq milli, mənəvi dəyərlərin keşiyində duran Vətən övladlarıdır. Maddi vəziyyətcə zəngin olanlar isə ancaq mala, pula hərislik, harada oldusa, ancaq qarnının qədri üçün yaşayanlardır.

Mənəviyyatca zəngin olmaq diləyi ilə yaşayanlar, mənəvi zənginliyə qovuşmaq istəyənlər ancaq saf, pak qəlb sahibidirlər. Əqli, qüdrəti, dərin zəkası, şəxsiyyətcə bütövlüyü, aqilliyi, müdrikliyi, milli-mənəvi dəyərləri müqəddəs sayanlar daxilən mənəvi zəngin adamlardır. Belə adamlar öz ürəklərinin təpəri, dərin



düşüncə tərzləri, xüsusi dərketmə qabiliyyəti, dərrakə qüdrətləri bahasına mənəviyyatca zənginliyə qovuşurlar və xalqın tarixində onların xüsusi mövqeyi, zəngin dünyaya malik ayrıca həyat səhifələri olur. Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Gələcək nəsillər, elmi araşdırma aparanlar Heydər Əliyevin şəxsiyyət bütövlüyünü formalaşdıran amillərdən biri kimi onun mənəvi zənginliyinin köklərinə də dərindən yanaşmalıdırlar. Bu zaman onlar rüşvətxorluq kimi qeyrətsizliyə səbəb olan amilə qarşı onun ciddi mübarizəsinə, xalqın maddi-rifah halının yaxşılaşmasına çalışdığına, ölkədə maddi-mədəniyyət abidələrinin qorunub saxlanmasına və yaradılmasına xüsusi fikir verdiyinə, xalqın heysiyyatına mənfi təsir edən amillərin dəf edilməsinə, milli şüurun formalaşması yönümünə böyük qayğı ilə yanaşdığına xüsusi diqqət verməlidirlər. Bu da xalqımızın milli mənəviyyat tarixini zənginləşdirən şəxsiyyətlərdən biri olan Heydər Əliyevin Azərbaycanın tarixində yaratdığı səhifəni daha da nurlandırmaqla nəticələnən ən insaflı, uğurlu tədqiqat işlərindən biri olacaqdır.

Daha bir fikri də qeyd edim ki, Heydər Əliyevin yaratdığı siyasi məktəb milli əqidədən qidalanan bir məbəddir. Heydər Əliyev əsil azərbaycanlı kimi düşünür, əsl azərbaycanlı kimi də siyasət meydanına girir, öz gedişləri ilə ən kamil siyasət adamlarını belə heyran qoyur. Bunu daha düzgün, daha dolğun anlamaq üçün Heydər Əliyevin birinci sinfə gedəndən ölkə prezidenti olana qədərki dövrünü tam açıqlamağa çalışmalıyıq. Burada onun şəxsiyyət bütövlüyünü qazanması, kamillik, aqillik, müdriklik zirvəsinə qovuşması istiqamətində yaşadığı bütün anlar tam incəlikləri ilə açıqlanmalıdır, ona görə ki, Heydər Əliyev mənalı ömür zənginliyini yaşayaraq, işləyərək zamanın, xalqın tale yükünü çiyinlərində daşıyaraq, bütöv şəxsiyyət kimi tariximizə daxil olmuşdur.

Heydər Əliyevi şəxsiyyət kimi bütövləşdirən amillərdən biri də milli şüurun formalaşmasında onun əvəzsiz roludur. Belə ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi elə ilk günlərdən ölkənin radio dalğalarında milli, mənəvi, əxlaqi dəyərlərimizin efir vasitəsilə xalqa çatdırılması üçün «Xalq yaradıcılığı Bulaq» verilişi açıldı. Xalqımızın milli, mənəvi, əxlaqi, maddi-məişət həyatını özündə əks etdirən yaradıcılığına həsr edilən bu veriliş bu günədək aktlaşdığını itirmədən davam etdirilir.

1980-cı illərdə «Ozan», «Dastan axşamı», «Ustadnamə» kimi zəngin söhbətlərlə, ustadların yaradıcılıq nümunələri ilə o taylı, bu taylı Azərbaycanı gəzən verilişlərin televiziyamızda açılması milli şüurun formalaşması üçün xalqımıza şirin ərməğan, bəxşiş oldu.

Həmin illərdən bir az əvvəl televiziyamızda «Tədris proqramları»nın yaradılması, müxtəlif sahələrlə yanaşı, xüsusən də «Azərbaycan dili» verilişinin açılması ən böyük uğurlarımızdan idi.

Elmə, təhsilə xüsusi diqqət verən Heydər Əliyev 70-ci illərdə Azərbaycanın hər il 700-800 gəncini SSRİ-nin müxtəlif böyük şəhərlərindəki ali məktəblərə, Azərbaycanda olmayan ixtisasları öyrənməyə göndərib. Bunun sayəsində indi Azərbaycanın nə qədər qiymətli mütəxəssisi var. Həmin ixtisasların əksəri isə

indi Azərbaycanda onlarla ali məktəb olmasına baxmayaraq, bizdə yenə də öyrədilmir. Hələ Çar Rusiyası zamanında azərbaycanlıların orduya, hərbi işə cəlb edilməsi mövcud hökumət üçün arzuolunmaz idi. Əksinə, bir sıra digər xalqlara bu sahədə geniş imkan yaradılırdı. Nəticədə başqa xalqların sovet ordusunda onlarca generalı olduğu halda, bizim yüksək rütbəli zabitlərimiz azdan da az idi. Millətin sabahını düşünən Heydər Əliyev Azərbaycanda Naxçıvanski adına hərbi məktəbi yaratdı. O dövrdə belə bir məktəbin Azərbaycanda açılmasına, təşkilinə icazə almaq təbii ki, ondan yüksək qətiyyət, mübarizlik tələb edirdi. Bu uzaqgörən addımın nəticəsini, bəhrəsini bu gün Qarabağ müharibəsində praktik olaraq görürük.

Azərbaycanın bu gün belə zəngin elmi, mədəni potensialı varsa, bütün bunların təməlində Heydər Əliyevin hələ neçə onillərdən bəri apardığı milli quruculuq işinin dayandığını unutmamalıyıq.

Heydər Əliyevin ölkəmizdə şəxsiyyət bütövlüyü ilə dövlətçiliyi idarə etdiyi dövrlərin ağır-yüngül, ağrılı-acılı, qəmli-qüssəli, dərdli-kədərli anları da az olmamışdır. İnsanın ömür yolu bütün təbii fəlakətlərlə, təbiət hadisələri ilə çulğanmış olduğu kimi dövlət idarəçiliyində də ictimai-siyasi hadisələr sadədən tutmuş ən mürəkkəb, ən ciddi, ən çətin məqamlarla çulğanmış olur. Qətiyyətli, müdrik siyasətçi isə bunları saf-çürük edir, fiziki, zehni, əqli gərginlik içərisində olduqda belə daim fəaliyyətdə olur.

1991-ci ildə müstəqillik qazanmış Azərbaycanın tarixi düşmənləri «ideoloji müharibə»lərini yenidən həyata keçirməyə başladılar. Azərbaycanda müstəqil dövlətçiliyin yaradılmasının, mövcud ola bilməsinin köklərindən xəbərsiz olan o vaxtkı nadan kadrlarımız daxili və xarici təxribatlardan, təcavüzlərdən baş çıxara bilmədiklərinə görə çıxılmaz vəziyyətə düşdülər. Azərbaycan müstəqillik qazansa da, əqli qüdrət sahiblərinin idarəsindən məhrum idi. Səriştəsiz, ideoloji müharibələrin, mübarizələrin nə olduğunu qavramayan kadrlarımız xalqın qazandığı müstəqilliyi itirmək həddinə çatmışdılar. 1993-cü ilə qədər Azərbaycanda gedən siyasi oyunları xüsusi aqillik, müdriklik düşüncəsi ilə izləyən Heydər Əliyev bütün bunları tarixi keçmişin təcrübəsi əsasında müqayisə ilə izləyirdi. Ən təhlükəli bir anın – Azərbaycanın müstəqilliyini istəməyənlərin, gözügötürməyənlərin tarixi fırıldaqlarının, siyasi oyunlarının son həddi olan Azərbaycanı vətəndaş müharibəsi sayəsində parçalamaq anının faciə ilə nəticələnə biləcək çağında Heydər Əliyev Azərbaycanın dadına yetdi. Heydər Əliyevin 1993-cü il ildə hakimiyyətə gəlişi ən əvvəl Azərbaycanı parçalanma təhlükəsindən xilas etdi. Sonra isə zəkasının ziyası ilə Azərbaycana bəd nəzərlərlə baxanların gözlərini qamaşdırdı. Daha sonra isə siyasi əqidəsi, şəxsiyyət bütövlüyü, yenilməzliyi, əyilməzliyi, dönməzliyi ilə iblis oyunu oynayanların qarşısında yalçın qaya kimi göründü. Yalçın qaya isə tufanda, qasırğada, şaxtada, boranda, lap sellərin-suların qarşısında öz əzəməti, məğrurluğu ilə tərpənmədən şux dayanır. Heydər Əliyevin nəzərindən heç bir siyasi oyun, iblis əməllərinin qaça bilmədiyinə görə daxili və xarici təxribatçılar, təcavüzkarlar bəd əməllərinə son qoydular.



1918-1920-ci illərdəki düşmənlərimiz artıq 1993-cü illərdə əzəmətli, möhtəşəm, vüqarlı, Ana torpağın tərkinə qaya kimi bərkimiş Heydər Əliyevin şəxsiyyətinin qüdrətindən ehtiyat edərək, heç bir fırıldağa əl atıb iblis oyunu oynaya bilmədilər. Babək dövrünün milli azadlıq hərəkatının daxili qüvvələr hesabına yatırılmasından tutmuş 1918-20-ci illərdəki təxribatlardan, təcavüzlərdən xəbəri olan və bu səbəbləri zərgər dəqiqliyi ilə bilən Heydər Əliyev şəxsiyyət bütövlüyü, vətəndaş əqidəsi ilə Vətənin – Azərbaycanın bütöv bir dövlət kimi dünya dövlətləri sırasında müstəqil məmləkət dövrünü yaşaması üçün tarixi iş gördü bildi. O, şəxsiyyətinin bütövlüyü, zəkasının ziyası, əqlinin qüdrəti ilə Müstəqil Azərbaycan dövlətinin təməlini formalaşdırdı. Azərbaycan dilinin qüdrətli bir millətin dövlət dili kimi işlək dairəsini təmin etdi.

Bu baxımdan, Heydər Əliyevi tariximizdə bütövlüyümüzün təminatçısı kimi anlamaqla yanaşı, onu Azərbaycanın müstəqilliyini istəməyənlərin əməllərinə sipər olan əqli qüdrət sahibi, ağlının gücündən qüdrətlə istifadə etməyi bacaran şəxsiyyət kimi qəbul etməliyik. Bu gün hər birimiz Heydər Əliyevin tariximizdə qazandığı dövlətçilik təcrübəsini örnək kimi qəbul etməyi bacarmalıyıq. Onun önəmli əməllərini müqəddəsliyimiz üçün qəbul etməyi rəva bilməliyik. Heydər Əliyevi dərk etmək, onun əqidəsini, düşüncəsini başa düşmək üçün Heydər Əliyevin düşüncə səviyyəsinə çatmağa can atmaq lazımdır. Amma kor-koranə, siyasi meydandakı oyunları tam incəlikləri ilə qavramadan Heydər Əliyevin iş prinsipi haqqında mühakimə aparmaq, fikir yürütmək ağılsızlıq olardı. Dərk etməliyik ki, tariximizdə uğurlu səhifə yaradan, ağlın qüdrətindən bacarıqla istifadə etməyə qadir olan Heydər Əliyev bütöv şəxsiyyət olduğu üçün Azərbaycanda dövlətçiliyi də bütöv saxlaya bildi. Bunu bilmək istəməyənlər bütövlüyü qorunan Azərbaycanı, Azərbaycanın bütövlüyünü ağlının gücü ilə təmin edən Heydər Əliyevi gözü götürməyənlərdir. Azərbaycanı nura qərq edən Heydər Əliyevin qüdrətli zəkasının qədrini bilmək, onu qorumaq elə Azərbaycanın bütövlüyünü qorumaq deməkdir. Tariximizin bütövlüyünə qibtə etməyi bacarmaq, tariximizdə şəxsiyyət bütövlüyü kimi soraq sahibi olmaq nadir övladlarımıza xas olan haldır. Müasir dünyanın görkəmli siyasi xadimlərinin qibtə etdiyi xalqımızın nadir övladı Heydər Əliyevi biz niyə sevməməliyik? Axı, Heydər Əliyev **azərbaycanlımızdır**, bütöv şəxsiyyət kimi Vətənimizin oğludur. Axı, Heydər Əliyevin şəxsiyyət bütövlüyünün sayəsində məmləkətimiz bəd əməllərdən, iblis oyunlarından yaxasını qurtara bildi, xarici təxribatlara, təcavüzlərə son qoyuldu. Yaralanmış, paralanmış olan ana yurdumuz tapdaqlardan xilas oldu, rahatlıq tapdı.

Bu şəxsiyyət bütövlüyü Azərbaycanı da parçalanma təhlükəsindən qorudu və indi də qoruyur. Bir şeyi yadda möhkəm saxlamaq lazımdır ki, Heydər Əliyev heç bir artıq hərəkətə, yersiz davranışa yol vermir. Sözü də yerli-yerində «xərcləyir», ədəb-ərkanı diqqətdən qoymur. O, qısa, yığcam, kəskin söhbəti ilə hər bir məclisi tamamlamaq gücünə qadirdir. Bu da onun şəxsiyyət bütövlüyünü şərtləndirən amillərdəndir.

Bir də yadda saxlayaq ki, Heydər Əliyev tariximizə yaddaş ömrü yaşayır, tariximiz onu Azərbaycan üçün yaşayan dahi, müdrik bir şəxsiyyət kimi qəbul etmişdir. O, Ana tariximizə xüsusi bir səhifə ilə – **HEYDƏR ƏLİYEVİN TARİXƏ YADDAŞ ÖMRÜ** səhifəsi kimi daxil olmuşdur.

Bu gün də Heydər Əliyev özünün müdriklik, aqillik, kamillik, bütövlük gücü ilə Azərbaycanda dövləti bütöv saxlamaqla, heç bir təxribata, təcavüzə yol verməməklə ulu keçmişimizin əsl kişilərinin ruhu qarşısında əzəməti ilə savab qazanır.

Kişilər əzilməz, yenilməz, döyülməz olurlar. Bu da danılmazdır!

Müxtəlif dövrlərdə ayrı-ayrı yerlərdə heç kəsə əyilməyən, ən çətin sınaqlarda heç vaxt yenilməyən Heydər Əliyev şəxsiyyət bütövlüyünü qoruyub saxlayaraq, Azərbaycanın müqəddəsliyi naminə, Vətənin bütövlüyü xatirinə əyilən, yenilən, yanılan, səhv edən deyildir!

Əyilməzlik, yenilməzlik, yanılmazlıq kimi əsl kişi əməlləri, xasiyyətləri də Heydər Əliyevi şəxsiyyət kimi bütövləşdirən ən ümdə amillərdəndir. Bunları ağıllı, ayıq, dərin dərrakəyə, düşüncə tərzinə malik olanlar çox yaxşı duyurlar, amma hərə bir cür qiymət verir. Haqq üçün qiymət verənlər Azərbaycanı bütöv görmək istəyənlərdir, Vətənimizi müqəddəsliklə duyanlardır.

Heydər Əliyevin keçdiyi ömür yolunda onu bütövləşdirən, şəxsiyyət kimi formalaşdıran amillərdən biri də onun mübarizliyidir.

Mübarizlik zəifliyə, ikiüzlülüyə, sözündən dönməyə, dili ilə əməlində fərq olmağa, nəyinsə xatirinə həqiqətə, ədalətə göz yummağa, biganəliyə, etinasızlığa, başısoyuqluğa şərait yaradıb imkan verməyən əsl kişi xasiyyətidir.

Mübarizliklə qəhrəmanlıq, igidlik, cəsurluq eyni xüsusiyyətlərdir. Həqiqi kişi ömrü yaşayıb dağ əzəməti ilə cəmiyyətdə özünə yer tapıb mövqe tutanlar özlərinin əqidə bütövlüyünü ön planda saxlayırlar. Ona görə ki, mübarizlik əqidə bütövlüyündən asılı olan insani keyfiyyətdir. Əsl insani keyfiyyətlər insanın dözümlü, dəyanətli, mətin olması ilə həyata keçirilir. Heydər Əliyev də qarşısına qoyduğu məqsədinə çatmaq üçün mübarizliyinin, mətinliyinin, dözümlüyünün gücünə arxalanır.

Heydər Əliyevin əqidəsinin bütövlüyünü duyaraq, onun əqidə bütövlüyündən bəhrələnməyin özü də ən önəmli mövqelərdə görünməyimizə zəmin yaradar. Biz ağlının gücündən, qüdrətindən bacarıqla istifadə edən bu müdrik, qüdrətli şəxsiyyətin həyat, iş, idarəçilik formulasını əhatəli şəkildə öyrənməklə, qavramaqla, onu dəstəkləməklə, onun ətrafında sıx birləşməklə, ideyalarına həmrəy olmaqla qayələnsək, əsl vətəndaşlıq borcumuzu yerinə yetirməyi reallaşdırarıq.